# *Kürdəmir:* daha sanballı nailiyyətlərə doğru

***2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş müşavirədə geniş hesabat məruzəsi ilə çıxış edən Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov ötən ilin yekunlarını xarakterizə edən çoxsaylı fakt və rəqəmlərdən söz açdı.***





Başçı qeyd etdi ki, geridə qalan il Azərbaycan tarixinə "dördgünlük" aprel döyüşlərində əsgər və zabitlərimizin qazandığı şanlı uğurlarla yazılıb: "Həmin döyüşlərdə əsgər və zabitlərimiz hərbi peşəkarlıq göstəriblər. Onlar arasında Kürdəmir şəhər sakini, "Azərbaycan Bayrağı" ordeninə layiq görülmüş Əbubəkr Vüqar oğlu İsmayılov və Sığırlı kənd sakini "Hərbi Xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medal ilə təltif edilmiş Tural Gülşad oğlu Qurbanov da var. Hər iki həmyerlimiz döyüşdə qəhrəmanlıq göstərib və torpaqlarımızın işğaldan azad edilməsi yolunda şəhid olub".

Hesabat ilində kürdəmirlilərin sosial-iqtisadi sahədə qazandığı uğurlar barədə danışan məruzəçi qeyd etdi ki, dövlət proqramına əsasən rayonda nəzərdə tutulan tədbirlər uğurla həyata keçirilib. Belə ki, rayon üzrə istehsal edilən ümumi daxili məhsul 331 milyon 991 min manat olub. 1786 nəfər işlə təmin olunub ki, bunun da 1706 nəfəri daimi işdir.

Rayonda sahibkarlığın inkişafına diqqət artırılıb, əhalinin pay torpaqlarından istifadəsinin səmərəliliyi yüksəlib. Bütün bunlar əhalinin işlə təmin olunmasına, həyat səviyyəsinin yaxşılaşdırılmasına, yoxsulluğun azaldılmasına şərait yaradır. Respublika Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə sahibkarlığın inkişafı üçün 2016-cı ildə rayonun 14 sahibkarına 196,2 min manat məbləğində kredit verilib və nəticədə 21 yeni iş yeri yaradılıb.

Hesabat ilində rayonda tikinti, quruculuq və abadlıq işləri geniş vüsət alıb, şəhərin küçə və meydanlarının abadlaşdırılması, yenidən qurulması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilib. Ölkə Prezidenti tərəfindən Kürdəmirdə abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə şəhərin mənzil fonduna daxil olan 21 çoxmənzilli ictimai yaşayış binasının əsaslı təmiri məqsədi ilə rayon icra hakimiyyətinə Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3 milyon manat vəsait ayrılması barədə 18 sentyabr 2015-ci il tarixli sərəncama uyğun olaraq rayonun 21 çoxmənzilli yaşayış binasında hələ ötən il yanvar ayının sonundan təmir işlərinə başlanılıb.

Səhiyyə Nazirliyinin sifarişi əsasında Kürdəmir rayonlararası 100 çarpayılıq psixiatriya xəstəxanasının tikintisi başa çatdırılıb, Axtaçı-Qarabucaq kəndində 132 şagird yerlik tam orta məktəbin tədris binasının birinci mərtəbəsinin və idman zalının hörgü işləri tamamlanıb, Bağman, Yeni Şıxımlı, Çöl Ərəb və Çərtəyəz kəndlərində Nazirlər Kabinetinin sifarişi əsasında modul tipli məktəblərin tikintisi planlaşdırılıb, hazırda layihə-smeta sənədləri hazırlanır.

Rayonda taxılçılığın, pambıqçılığın, narçılığın, üzümçülüyün, baramaçılığın və maldarlığın inkişaf etdirilməsi, balıqçılıq göllərinin yaradılması, istixanaların tikilməsi, ümumilikdə, kənd təsərrüfatının bütün sahələrinin inkişaf etdirilməsi istiqamətində mühüm addımlar atılır. Dövlət fermerlər üçün bir sıra güzəştlər müəyyən edib. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçıları torpaq vergisi istisna olmaqla, digər vergilərdən azad ediliblər. Fermer və sahibkarlar güzəştli şərtlərlə kredit, toxum, lizinq yolu ilə satılan gübrə, texnika, damazlıq mal-qara almaq imkanlarına malikdirlər. Eyni zamanda, əkin sahəsinin becərilməsində istifadə olunan yanacağın və motor yağlarının dəyərinin ödənilməsi üçün dövlətimiz tərəfindən onlara subsidiyalar verilir.

Azərbaycana valyuta axınının təmin edilməsi məqsədilə ixracyönümlü məhsulların istehsalının xüsusi əhəmiyyət daşıdığı, pambığın da ixracyönümlü məhsul olduğu nəzərə alınaraq, bu sahənin ciddi inkişaf etdirilməsi qarşıya mühüm vəzifə kimi qoyulub. Müqavilə bağlanmış zavodlar tərəfindən pambıqçıların təchizat və təminat məsələləri yüksək səviyyədə həll olunub, nəticədə, qısa müddətdə 1911 hektar sahədə pambıq əkilib. Məhsul yığımı dövründə 2000 nəfərə yaxın işçi qüvvəsi, 2 pambıqyığan maşın, digər maşın və mexanizmlər cəlb edilib, 2111 tonadək pambıq tədarük edilərək zavoda təhvil verilib.

Rayon rəhbəri qeyd etdi ki, digər sahələrdə olduğu kimi, taxılçılıqda da kifayət qədər uğurlar əldə edilib. Belə ki, səpin, becərmə və suvarma işləri vaxtında aparılıb, taxıl yığımı mütəşəkkil keçib, biçinə 140-dan çox kombayn cəlb edilib, 40 min 198 hektar sahənin taxılı optimal müddətdə minimum itkilərlə yığılıb, sahələrdən 103 min tonadək taxıl götürülüb. Hər hektardan 25,6 sentner məhsul alınıb. 524 ton isə qarğıdalı dəni istehsal olunub.

Təbii ki, Kürdəmir həm də ölkənin əsas narçılıq bölgələrindəndir. Ona görə də rayonda 3000 hektardan çox plantasiya şəklində nar bağı salınıb. Bu bağlardan 500 hektardan çoxunun müasir texnologiya ilə becərilməsi, damcılarla suvarılması təşkil olunub. Eləcə də üzümçülük məhsullarının istehsalı və emalının genişləndirilməsi sahəsində ardıcıl işlər aparılıb və nəticədə 2753 ton üzüm istehsal olunaraq təhvil verilib.

Əhaliyə göstərilən xidmətlərin səviyyəsinin də artdığını qeyd edən məruzəçi dedi ki, rayon əhalisinin elektrik enerjisi, təbii qaz, içməli su ilə təminatı və xidmət müəssisələrinin bu sahədə fəaliyyətləri rayon icra hakimiyyətinin diqqət mərkəzində saxladığı ən vacib məsələlərdəndir. Ötən il rayon mərkəzində və kəndlərdə qəzalı vəziyyətdə olan elektrik dirəklərinin, köhnəlmiş naqillərin, texniki cəhətdən nasaz olan sayğacların dəyişdirilməsi, sıradan çıxmış transformatorların yenisi ilə əvəz olunması diqqət mərkəzində saxlanılıb.

Dövlət proqramına uyğun olaraq, il ərzində şəhərin təbii qazla təchiz olunmayan ayrı-ayrı məhəllələrinin, kəndlərin qazlaşması işi davam etdirilib. Hazırda Kürdəmir şəhəri də daxil olmaqla, 62 yaşayış məntəqəsindən 56 yaşayış məntəqəsi qazla təmin edilib ki, bu da abonentlərin 86 faizini təşkil edir, 2 yaşayış məntəqəsində işlər hazırda davam etdirilir.

Hesabat ilində kürdəmirli məzunlardan 508 nəfəri ali məktəblərə qəbul olunmaq üçün müraciət edib. Onlardan 172 nəfəri yüksək bal toplayaraq ali təhsil müəssisələrinə, 51 nəfəri orta ixtisas müəssisələrinə qəbul olunub ki, bu da ötənilki göstəricidən çoxdur. Qəbul olunanlardan 37 nəfəri 500 baldan, 11 nəfəri isə 600 baldan çox nəticə göstərib. Şəhər 2 saylı tam orta məktəbin məzunu Təbriz Qasımov 700 bal və Dəyirmanlı kənd tam orta məktəbinin məzunu Gilə Məmmədli 685 bal toplayaraq Prezident təqaüdünə layiq görülüblər.

Yığıncağın işində Prezident Administrasiyasının məsul işçisi Rüfət Məmmədov, Milli Məclisin deputatları Rafael Hüseynov və Müslüm Məmmədov iştirak edirdilər.

***İlqar HƏSƏNOV,***
***"Xalq qəzeti"nin***
***bölgə müxbiri***